

Vaqif Əliyev

## OXU RƏŞİD

*Dünya şöhrətli müğənni Rəşid Behbudovun oxuduğu "Ana" mahnısının lent yazısını dinləyərkən hər dəfə keçirdiyim hisslər məni kövrəldir.*

Tanıdıbsan dünyaya
Sən xalqını, vətəni.
Özünə məftun etdin
səsinlə hər yetəni.
Bu səsin sehrinə bax
heyran edir hamını.
Könlümü oxşayıb
yüksəldib ilhamını.
Dinlədikcə doymuruq
bu şirin, şaqraq səsi.
Hər xalqa qismət olmur
istedadda beləsi.
Oxu Rəşid, qoy bilsin
övlad ana qədrini.
Duysun onun həmişə
yaz nəfəsli ətrini.
Öz ətindən, qanından
yaradıb bütöv bədən.
Anadır yer üzünə
bizi verən, bəxş edən.
Hər birimiz ananın
canının parçasıyıq.
Onun nurlu gözünün
ağıyıq, qarasıyıq.
Gecələr çox olub ki,
ağlayıb oyanmışıq.
Qayğısıyla ananın
böyüyüb boy atmışıq.
Qoy dolansın bu səsin
ölkələr aşa-aşa.

Bu səs qoymaz övladın
ürəyi dönsün daşa.
Qoymaz bu səs heç kimin
vicdanını yatmağa.
Ən nankor övladı da
cəhd edir oyatmağa.

Öpək göz üstə qoyaq
anaların əlini,
Sağlığında ucaldaq
möhtəşəm heykəlini.
Anaların üzündə
kədər yox, bahar olsun,
Onların xoş nəzəri
üstümüzdə var olsun!

Oxu, Rəşid, bu nəğmən,
gəzsin dünyanı el-el.
Sən hər, "ana" deyəndə
qəlbimiz olur tel-tel.
Qədirbilən xalqımız
səni unudan deyil!

## QORUMASAQ BİZ ƏGƏR

Qismət olmur şərəflə
Yaşamaq hər bir kəsə.
Dağı dağ üstə qoyar
İnsan əgər istəsə!

Hamımıza bu dünya
Mübarizə meydanı.
Qoymayaq girə qəlbə
Biz iblisi, şeytanı.

Layiqli övlad olaq,
Gəlin doğma Vətənə,
"Oğul!" deyib o açsın,
Qolunu hər yetənə.

Vətən öz övladını
Dar günündə sınayar.
Vəfasız olanları
Töhmətləyər, qınayar.

Oğul öz torpağını,
Laləzara döndərər.
Düşmənini məhv edib
Cəhənnəmə göndərər.

Vətəndən Vətən olmaz
Qorumasaq biz əgər.
Keşiyində can qoyub
Olmasaq ona əsgər!

## BİZƏ ÖRNƏK O CANDI

Yorulmaq bilmədən heç
hey işləyir qarışqa.
O, canlılar içində
tamam başqadı, başqa.
Nizamla düzülürlər
onlar əsgərsayağı.
Hərəkətdədir daim
yorulmur əl-ayağı.
Elə bil işləməkdə
giriblər bəhsə-bəhsə.
Baxanlar heyran olur
qarışqada həvəsə.
Özündən qat-qat ağır,
yük dartırlar gör necə?!
Beləcə işləyirlər
durmadan gündüz, gecə.
Yoxdur bircə dənə də
acizi, nə tənbəli.
Harda birlik olarsa
işlər gedər irəli.
Qarışqanı görməzsən
bir-biriylə dalaşan,
Gününü boş keçirən?
hədər yerə dolaşan.
Göstəriş də verən yox,
bilir hərə işini.
Insan da qalib olar,
getsə düz gedişini.

## HÖRMƏTİM OLSUN

Qaçıram, qaçıram hər vaxt zülmətdən,
Üz tutub gedirəm mən nura sarı.
Ay xeyir söyləməz, danışma bəddən,
Yön alıb gedəcəm uğura sarı.

Bu yollar necə də çala-çuxurdu,
Hələ ki, görünmür düzü, hamarı.
Bilirəm qazancım sonda uğurdu,
Düzlükdü dünyanın ən şah damarı.

Gərəkdir ləyaqət, şərəf insana,
Hər dağın sıldırım qayası çoxdur.
Zirvədən boylanıb baxsan dörd yana,
Aldığın ləzzətin əvəzi yoxdur.

Həyata baxışım olmayıb səthi,
Qoy əzablı yollar qismətim olsun.
Vallah istəmirəm varı-dövləti,
Bircə el içində hörmətim olsun.

## KARUSEL

Yer günəşin başına
pərvanətək dolanır.
Ondan odu, atəşi,
hər gün həvəslə alır.
Günəş böyük tonqaldı,
gecə-gündüz o yanır.
Şöləsindən büsbütün
dünya nura boyanır.
Görən bu günəş bunca
odunu hardan alır?!
Sirrə vaqif olmayan
insan mat-mətəl qalır.
Hər birimiz tanrının
yaratdığı bəndəyik.
Aramızda yerlə göy,
sirli bir aləmdəyik.
Yer bizi dayanmadan
öz üstündə aparır.
"Yüküm ağırdı" deyə,
nə yersiz haray çəkir,
Nə də səs-küy qoparır.
Tanrı bizi mindirib
yer adlı karuselə.
Sürətlə hey gedirik,
günümüz keçir belə.
Möcüzəylə doludu
kainat başdan-başa.
Baxdıqca heç doymuruq: -
- bu dünya bir tamaşa.
Bizimlə bir fırlanır
anamız bu yer üzü.
Qəlbimizə doğmadır
gecəsi, həm gündüzü...

## QORXURAM

Vaxt yaman qısadı,
vaxt yaman dardı.
Illər də ömürdən sürətlə gedir.
Verilən zaman da qurtar-qurtardı,
Bu nasaz ürək də şıltaqlıq edir.

Istəməm kimsəyə borclu qalım mən
Sonra da arxamca
tez-tez deyinsin.
Bilmirəm nə edim səninçün Vətən,
Xalqım da mənimlə bir gwn öyünsün.

Bədxərc olmamışam bu vaxta qədər,
Xəsistək xərclədim:
ili, həm ayı.
Vaxtı keçirmədim
mənasız, hədər,
Qoymadım bu ömür gedə havayı.

Borcumu verməyə tələsirəm mən,
Bu vaxta, zamana etibarım yox.
Hər ötən an üçün hey əsirəm mən
Qorxuram Vətənə borclu qalım çox.

## QƏLBİMİ

Susub haqsızlığa, dözə bilmirəm,
Yandırır yanıqlı bir ah qəlbimi.

Sülengi it kimi gəlir arxamca,
Istəyir haqlasın günah qəlbimi.

Sirli muğamatın vurğunuyam mən,
Qul edib özünə "Segah" qəlbimi.

Tanrının bir xoşbəxt bəndəsiyəm mən,
Hifz edib qoruyur Allah qəlbimi.

Xumar baxışıyla söz deyib o qız,
Ram etdi özünə bu şah qəlbimi.

Ötüb gedən illər axırda mənim
Eylədi çox sirdən agah qəlbimi.